**AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ**

# BAKI DÖVLƏT UNİVERSİTETİ

# TARİX FAKÜLTƏSİ

# 5507.01 – "BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ" İXTİSASI ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHAN PROQRAMI

*Fakültə Elmi Şurasının 1 may 2026-cı*
*il tarixli (05 saylı protokol)*
*iclasının qərarı ilə təsdiq olunmuşdur*

**BAKI - 2026**

**Tərtib edənlər:** Dosent Elmira Hüseynova
Dosent Məmmədağa Baxışov
Dosent Rövşən Hətəmov
Dosent Hüseyn Hüseynli

**Elmi redaktor:** Dosent Kəmalə Nəcəfova

# 5507.01 – “BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ”
## İZAHAT VƏRƏQƏSİ

**Proqramın məzmunu.** “Beynəlxalq münasibətlər tarixi” fənninin tədqiqat obyekti və vəzifələri. “Beynəlxalq münasibətlər tarixi”- nin beynəlxalq münasibətləri öyrənən digər elmlərlə əlaqəsi.

“Beynəlxalq münasibətlər tarixi”-nin anlayışlar sistemi, metodu və tədqiqat prinsipləri. Beynəlxalq münasibətlər tarixi beynəlxalq münasibətlər sisteminin qanunauyğunluqlarının inkişafı haqqında elm kimi. Azərbaycanın dövlət müstəqilliyinin bərpası və “Beynəlxalq münasibətlər tarixi”-nin tədrisinin əhəmiyyətinin artması. Beynəlxalq münasibətlər tarixinin dövrləşdirilməsi və tarixşünaslığı.

### XVII əsrin ikinci yarısında və XVIII əsrdə beynəlxalq münasibətlər

XVII əsrin ikinci yarısında və XVIII əsrdə beynəlxalq münasibətlərin əsas problemləri. Otuzillik müharibədən sonra Avropada yeni beynəlxalq münasibətlər sisteminin yaranması. Fransanın Avropada hegemonluq uğrunda mübarizəsi. XIV Lüdovikin müharibələri. XVII əsrin ikinci yarısında İngiltərənin və Rusiyanın xarici siyasəti.

XVIII əsrin birinci yarısında Avropada beynəlxalq vəziyyət. “İspan irsi”, “Polşa irsi” və “Avstriya irsi” uğrunda müharibələr. Şimal müharibəsi, onun yekunları. XVIII əsrdə Rusiyanın xarici siyasəti.

XVIII əsrin ikinci yarısında beynəlxalq vəziyyət və beynəlxalq aləmdə qüvvələrin yerləşməsi. Prussiyanın qüvvətlənməsi. Prussiya kralı II Fridrixin diplomatiyası. Avstriya-Prussiya rəqabəti. XVIII əsrin ikinci yarısında İngiltərənin xarici siyasəti. İngiltərə-Fransa ziddiyyətləri. Fransanın xarici siyasəti. Yeddiillik müharibə, onun Avropada və müstəmləkələrdə beynəlxalq münasibətlərə təsiri.

XVIII əsrin 60–90-cı illərində beynəlxalq münasibətlər. “Şərq məsələsi” və XVIII əsrin ikinci yarısında Rusiya-Türkiyə müharibələri. “Polşa məsələsi”. Polşanın Rusiya, Prussiya və Avstriya arasında bölüşdürülməsi.

Şimali Amerikadakı İngiltərə müstəmləkələrində istiqlaliyyət

uğrunda müharibə və ABŞ-nin yaranması. "Silahlı dəniz bitərəfliyi haqqında Bəyannamə". XVIII əsrin sonunda ABŞ-nin xarici siyasəti və diplomatiyası. Böyük Fransa inqilabının beynəlxalq münasibətlərə təsiri. Fransa inqilabı dövründə Avropa diplomatiyası. Direktoriya dövründə Fransanın xarici siyasəti.

XVII əsrin ikinci yarısında və XVIII əsrdə Avropa dövlətlərinin müstəmləkə siyasəti. Müstəmləkə probleminin kəskinləşməsi və onun beynəlxalq münasibətlərə təsiri.

## XIX əsrin birinci yarısında beynəlxalq münasibətlər

XIX əsrin əvvəllərində Fransanın xarici siyasəti. Napoleyonun müharibələri. Fransaya qarşı Avropa dövlətlərinin koalisiyaları. Avstriya və Prussiyanın Fransaya tabe edilməsi. İngiltərənin qitədən mühasirəsi. Tilzit sülhü. Fransa ordusunun Pireney yarımadasına hücumu. Rusiya–İsveç müharibəsi, Finlandiyanın Rusiyaya birləşdirilməsi. Fransa–Rusiya müharibəsi, onun beynəlxalq yekunları. Fransada Birinci imperiyanın süqutu. Avropada qüvvələr nisbətinin dəyişməsi. Vyana konqresi, onun Yekun aktı. Vyana sisteminin əsas prinsipləri. Müqəddəs İttifaqın yaradılması, onun konqresləri. Müqəddəs İttifaqın Avropa ölkələrində inqilabi hərəkata qarşı mübarizəsi. Müqəddəs İttifaqın iştirakçıları arasında ziddiyyətlər. İngiltərənin mövqeyi.

Fransa və Belçikada 1830-cu il inqilablarının beynəlxalq münasibətlərə təsiri. Səfirlər London konfransı. Belçika və Yunanıstan krallıqlarının yaradılması. Polşada 1830–1831-ci illər üsyanı və Qərb dövlətlərinin mövqeyi. Fransada İyul monarxiyasının xarici siyasəti. XIX əsrin birinci yarısında İngiltərənin xarici siyasəti. Avropa ölkələrində 1848–1849-cu illər inqilablarının beynəlxalq münasibətlərə təsiri.

XIX əsrin birinci yarısında Yaxın, Orta və Uzaq Şərqdə beynəlxalq münasibətlər. İranda İngiltərə–Fransa rəqabəti. Rusiya–İran ziddiyyətləri. Rusiya–İran müharibəsi (1804–1813), Gülüstan sülh müqaviləsi. 1806–1812-ci illər Rusiya–Türkiyə müharibəsi, Buxarest sülhü. Yunan üsyanı və Avropa dövlətlərinin diplomatiyası. 1826–1828-ci illər Rusiya–İran müharibəsi, Türkmənçay müqaviləsi.

1828–1829-cu illər Rusiya–Türkiyə müharibəsi, Ədirnə sülhü. XIX əsrin 30–40-cı illərində "Şərq məsələsi" ətrafında beynəlxalq ziddiyyətlər. Misir–Türkiyə müharibələri və Avropa dövlətlərinin siyasəti. Türkiyədə və İranda Avropa dövlətlərinin mövqelərinin möhkəmlənməsi. İngiltərə–Əfqanıstan müharibəsi (1839–1842). Orta Asiyada İngiltərə–Rusiya rəqabəti. Rusiya–Çin münasibətləri. Yaponiyanın özünü təcriddən çıxması.

Amerikada köhnə müstəmləkə sisteminin böhranı. XIX əsrin birinci yarısında ABŞ-ın xarici siyasəti. 1812–1814-cü illər ABŞ–İngiltərə müharibəsi. Floridanın ABŞ-yə birləşdirilməsi. Latın Amerikasında istiqlaliyyət uğrunda müharibə, müstəqil dövlətlərin yaranması. "Cənubi Amerika məsələsi"-də ABŞ-nin mövqeyi. "Monro doktrinası". İngiltərə və Fransanın Latın Amerikasındakı hadisələrə münasibəti. Sakit okean hövzəsində və Çində ABŞ-nin siyasəti. Texasın işğalı. ABŞ–Meksika müharibəsi (1846–1848), onun yekunları.

## XIX əsrin 50–60-cı illərində beynəlxalq münasibətlər

XIX əsrin 50–60-cı illərində beynəlxalq münasibətlərin səciyyəvi cəhətləri. Krım müharibəsi, Paris konfransı. Vyana sisteminin böhranı. İtaliyanın və Almaniyanın birləşdirilməsinin beynəlxalq münasibətlərə təsiri. Piemontun Fransa ilə birlikdə Avstriyaya qarşı müharibəsi, onun yekunları. Venetsiyanın İtaliyaya qaytarılması. "Roma məsələsi" və onun İtaliyanın xeyrinə həll olunması.

Almaniyanın birləşdirilməsi uğrunda Prussiyanın mübarizəsi. Prussiyanın Danimarkaya qarşı müharibəsi. Praqa sülhü. Almaniyanın birləşdirilməsinin başa çatması. Şimali Alman İttifaqının yaradılması. Fransa–Prussiya müharibəsi. Frankfurt sülhü. Fransada II imperiyanın xarici siyasəti. Rusiyanın Avropa siyasəti. Vyana sisteminin dağılması.

O. Bismark diplomat kimi. Prussiyanın Danimarka, Avstriya və Fransa ilə müharibələri. Almaniyanın birləşdirilməsinin başa çatması. Fransada II imperiyanın xarici siyasəti. Rusiyanın xarici siyasəti.

ABŞ-də Vətəndaş müharibəsi və Avropa dövlətlərinin mövqeyi. İngiltərə, Fransa və İspaniyanın Meksikaya hərbi müdaxiləsi. Latın

Amerikasında ABŞ–İngiltərə rəqabəti. Rusiya–ABŞ münasibətləri.

Avropa dövlətlərinin müstəmləkə siyasəti. Tiryək müharibələri. Çinin özünü təcriddən çıxması. Rusiya–Çin və Rusiya–Yaponiya münasibətləri. ABŞ-nin Uzaq Şərq siyasəti. Cənubi Vyetnamın Fransa tərəfindən işğalı.

## 1871–1898-ci illərdə beynəlxalq münasibətlər

Azad rəqabət kapitalizmindən inhisarçı kapitalizmə keçid dövründə beynəlxalq münasibətlərin səciyyəvi cəhətləri. Avropada "silahlı sülh" sistemi. Fransa–Almaniya münasibətləri. Üç imperatorun ittifaqı. Avstriya–Rusiya və Almaniya–Rusiya münasibətlərinin kəskinləşməsi. Üçlər İttifaqının yaradılması. Fransa–Rusiya ittifaqı. İngiltərənin "parlaq təcrid" siyasəti.

Asiyada və Afrikada beynəlxalq münasibətlər. Rusiya–Türkiyə müharibəsi (1877–1878), San-Stefano müqaviləsi. Berlin konqresi. Orta Şərqdə İngiltərə–Rusiya ziddiyyətləri. Osmanlı imperiyası və İranın yarımmüstəmləkəyə çevrilməsi. İngiltərə–Əfqanıstan müharibəsi. ABŞ və Yaponiyanın Koreyaya müdaxiləsi. Fransanın Hind-Çində müstəmləkə siyasəti. Uzaq Şərqdə İngiltərə–Rusiya ziddiyyətləri. Yaponiya–Çin müharibəsi, Simonoseki müqaviləsi. Çinin nüfuz dairələrinə bölünməsi.

Avropa dövlətlərinin Afrikada müstəmləkə siyasəti. Afrikanın bölüşdürülməsi. İtaliya–Həbəşistan müharibəsi. Müstəmləkə siyasətinin yekunları.

Latın Amerikasında beynəlxalq münasibətlər. ABŞ və İngiltərənin Latın Amerikasına müdaxiləsinin genişlənməsi. "Amerika respublikalarının beynəlxalq ittifaqı"-nın yaradılması. İspaniya–ABŞ müharibəsi, Paris sülh müqaviləsi.

## XX əsrin əvvəllərində beynəlxalq münasibətlər

Avropada beynəlxalq vəziyyət. İngiltərə–Almaniya ziddiyyətləri. 1904-cü il İngiltərə–Fransa və 1907-ci il İngiltərə–Rusiya sazişləri və Antantanın formalaşması. Bosniya böhranı. Almaniyanın Antantanı zəiflətmək cəhdləri. İtaliya–Türkiyə müharibəsi, Lozanna sülhü.

Birinci və İkinci Balkan müharibələri.

Uzaq Şərqdə beynəlxalq münasibətlər. Çində milli-azadlıq hərəkatı və Qərb dövlətlərinin mövqeyi. ABŞ-nin Çində "açıq qapılar" və "bərabər imkanlar" siyasəti. İngiltərə–Yaponiya ittifaqı. Rusiya–Yaponiya müharibəsi, Portsmut sülhü. Qərb dövlətlərinin Rusiya–Yaponiya müharibəsi dövründə diplomatiyası.

Afrikada beynəlxalq ziddiyyətlər. İngilis–Bur müharibəsi. Bağdad dəmir yolu. Birinci və İkinci Mərakeş böhranları, onların sülh yolu ilə aradan qaldırılması.

XX əsrin əvvəllərində Latın Amerikasında beynəlxalq münasibətlər. ABŞ-nin xarici siyasətinin Latın Amerikasında beynəlxalq vəziyyətə təsiri. Panama kanalının çəkilməsi. Panamerika ittifaqının yaradılması.

**Birinci Dünya müharibəsi dövründə beynəlxalq münasibətlər**

1914-cü ilin yayında beynəlxalq aləmdə siyasi qüvvələrin yerləşməsi. Sarayevo qətli və iyul böhranı. İyul böhranı dövründə Avropa diplomatiyası. Birinci Dünya müharibəsinin səbəbləri və başlanması. İştirakçı dövlətlərin məqsədləri. Yaponiyanın və Türkiyənin müharibəyə qoşulması. İtaliyanın Antanta tərəfindən müharibəyə daxil olması. 1914–1915-ci illərdə Antanta dövlətlərinin qarşılıqlı münasibətləri. Yaponiyanın Çinə "21 tələbi". Bolqarıstanın müharibəyə qoşulması və Dördlər blokunun yaranması. Rumıniyanın müharibəyə qoşulması. Avropada müharibə və 1914–1917-ci illərdə ABŞ-nin bitərəflik siyasəti. ABŞ-nin Birinci dünya müharibəsinə daxil olması. Hərbi əməliyyatların gedişi, onun 1916–1917-ci illərdə müttəfiq dövlətlərin qarşılıqlı münasibətlərinə təsiri. Rusiyada 1917-ci il hadisələri. 1917-ci ildə Almaniyanın və Avstriya-Macarıstanın diplomatiyası. Dördlər bloku ilə Sovet Rusiyası arasında Brest-Litovsk müqaviləsi və Sovet Rusiyasının müharibədən çıxması. Polşa və Finlandiyanın müstəqilliyinin bərpası. Dördlər bloku ilə Rumıniya arasında Buxarest sülhü.

Dördlər blokunun məğlubiyyəti, onun səbəbləri. Salonik, Mudros və Padua barışıqları. Kompyen barışığı. Birinci Dünya müharibəsinin qurtarması.

## Versal–Vaşinqton sisteminin yaradilmasi

Birinci Dünya müharibəsinin beynəlxalq-siyasi yekunları. Qalib dövlətlərin planları. Paris sülh konfransı. Antanta ilə Almaniya arasında Versal sülh müqaviləsinin bağlanması. Millətlər Cəmiyyətinin yaradılması. Almaniyanın və Türkiyənin müstəmləkələrinin mandat prinsipi əsasında bölüşdürülməsi. Avstriya (Sen-Jermen), Bolqarıstan (Nei), Macarıstan (Trianon) və Türkiyə (Sevr) ilə sülh müqavilələri.

Uzaq Şərqdə və Sakit okean hövzəsində beynəlxalq ziddiyyətlər. Vaşinqton konfransı, onun qərarları. Versal–Vaşinqton sisteminin formalaşması.

Birinci Dünya müharibəsindən sonra Sovet Rusiyasının beynəlxalq vəziyyəti və xarici siyasəti. Antanta dövlətlərinin Sovet Rusiyasına qarşı hərbi müdaxiləsi, onun yekunları. Qərb dövlətlərinin Sovet Rusiyasını iqtisadi və diplomatik təcridetmə siyasəti. Genuya və Haaqa konfranslarında diplomatik mübarizə. Sovet Rusiyası ilə Almaniya arasında Rapallo müqaviləsinin imzalanması.

Azərbaycan Demokratik Respublikasının beynəlxalq vəziyyəti və xarici siyasəti. ADR nümayəndə heyətinin Paris sülh konfransında iştirakı. Versal Ali Şurası tərəfindən ADR-in müstəqilliyinin tanınması. 1920–1922-ci illərdə Azərbaycanın beynəlxalq münasibətlərdə iştirakı.

Yaxın və Orta Şərqdə beynəlxalq münasibətlər. Türkiyənin beynəlxalq vəziyyəti. Antanta ölkələrinin hərbi müdaxiləsinə qarşı Türkiyənin mübarizəsi, onun yekunları. Mudanya barışığı. Lozanna konfransı, onun qərarları. Sovet Rusiyasının Əfqanıstan, İran, Türkiyə və Monqolustan ilə müqavilələri. Yaxın və Orta Şərq ölkələrində milli-azadlıq hərəkatının beynəlxalq münasibətlərə təsiri.

## XX əsrin 20-ci illərində beynəlxalq münasibətlər

20-ci illərdə beynəlxalq münasibətlərdə təzminat problemi, onun iqtisadi və siyasi xarakteri. Təzminat məsələsində İngiltərə və ABŞ-

nin mövqeyi. Rur münaqişəsi. "Daues planı"-nın hazırlanması və London konfransında qəbul edilməsi. "Yunq planı". Avropada Fransanın mövqelərinin zəifləməsi.

XX əsrin 20-ci illərində beynəlxalq münasibətlərdə təhlükəsizlik problemi. Kiçik Antantanın yaradılması. Fransa ilə Kiçik Antanta ölkələri arasında münasibətlər. Milli və məhəlli təhlükəsizlik uğrunda Fransanın mübarizəsi və İngiltərənin mövqeyi. Lokarno konfransı, onun qərarları. Almaniyanın Millətlər Cəmiyyətinə daxil olması. Briand–Kellogg paktı.

SSRİ-nin xarici siyasəti. Qərb dövlətlərinin SSRİ ilə diplomatik münasibətlər yaratması. Sovet–İngiltərə və Sovet–Fransa münasibətləri. ABŞ-nin SSRİ-ni "tanımamaq siyasəti".

Yaxın, Orta və Uzaq Şərqdə beynəlxalq münasibətlər.

XX əsrin 20-ci illərində beynəlxalq münasibətlərdə tərksilah problemi. Ümumdünya tərksilah konfransına hazırlıq komissiyasının fəaliyyəti. Cenevrə (1927) və London (1930) konfranslarında hərbi-dəniz qüvvələrinin məhdudlaşdırılması məsələsinin müzakirəsi. SSRİ-nin tərksilahla dair təklifləri.

Latın Amerikasında beynəlxalq münasibətlər.

## XX əsrin 30-cu illərində beynəlxalq münasibətlər

XX əsrin 30-cu illərində beynəlxalq münasibətlərin səciyyəvi cəhətləri. Dünya iqtisadi böhranının beynəlxalq münasibətlərə təsiri. Lozanna konfransı, təzminatın və Almaniyanın ödəməkdən azad edilməsi. Almaniyada faşistlərin hakimiyyətə gəlməsi, onların xarici siyasət proqramı. Almaniyanın Millətlər Cəmiyyətindən çıxması. Almaniyanın Avstriyanı ilhaq etməyə çalışması və İtaliyanın mövqeyi. Saar plebisiti. Almaniyanın Versal müqaviləsinin hərbi maddələrindən imtina etməsi və sürətli silahlanması. Almaniya ilə İngiltərə arasında hərbi-dəniz sazişi. Alman ordularının Reyn silahsız zonasına daxil olması. "Berlin–Roma oxu". "Anti-Komintern paktı". İspaniyada vətəndaş müharibəsi (1936–1939). ABŞ, İngiltərə və Fransanın İspaniya hadisələrinə qarışmamaq siyasəti. Qarışmamaq komitəsinin yaradılması və fəaliyyəti. Almaniya və İtaliyanın İspaniyaya hərbi müdaxiləsi. İspaniya hadisələri dövründə SSRİ-nin

mövqeyi.

İtaliyanın Millətlər Cəmiyyətindən çıxması və "Anti-Komintern paktı"na qoşulması. Avstriyanın Almaniya tərəfindən işğalı. Münhen konfransı, Çexoslovakiyanın Sudet vilayətinin Almaniyaya verilməsi. İtaliya–Həbəşistan müharibəsi, böyük dövlətlərin və Millətlər Cəmiyyətinin mövqeyi. Almaniya–İngiltərə və Almaniya–Fransa münasibətləri. Hücum etməmək haqqında Almaniya–SSRİ müqaviləsi və onun gizli əlavələri.

XX əsrin 30-cu illərində beynəlxalq münasibətlərdə təhlükəsizlik problemi. SSRİ-nin kollektiv təhlükəsizlik uğrunda mübarizəsi. "Şərq paktı" ideyası. SSRİ-nin Fransa və Çexoslovakiya ilə qarşılıqlı yardım müqavilələri. 1939-cu il İngiltərə–Fransa–Sovet danışıqları.

Tərksilahla dair beynəlxalq Cenevrə konfransı. Almaniyanın "silahlanma sahəsində hüquq bərabərliyi"-nin Qərb dövlətləri tərəfindən tanınması. SSRİ-nin Cenevrə konfransında iştirakı. SSRİ-nin Millətlər Cəmiyyətinə daxil olması.

ABŞ-nin xarici siyasəti. ABŞ ilə SSRİ arasında diplomatik münasibətlərin yaradılması. XX əsrin 30-cu illərinin ikinci yarısında SSRİ–ABŞ münasibətləri. 1935–1941-ci illərdə ABŞ-nin bitərəflik siyasəti. ABŞ və təcavüzkarların şirnikləndirilməsi. ABŞ-ın Latın Amerikasında "mehriban qonşuluq" siyasəti.

XX əsrin 30-cu illərində Yaxın və Orta Şərqdə beynəlxalq münasibətlər. Montre konfransı.

XX əsrin 30-cu illərində Uzaq Şərqdə beynəlxalq münasibətlər. Mançuriyanın Yaponiya tərəfindən işğalı və Qərb dövlətlərinin mövqeyi. Yaponiya–Çin münaqişəsinin Millətlər Cəmiyyətində müzakirəsi. Litton komissiyası. Yaponiyanın Millətlər Cəmiyyətindən çıxması. ABŞ–Yaponiya ziddiyyətlərinin kəskinləşməsi. Şimali və Mərkəzi Çinin Yaponiya ordusu tərəfindən işğalı. SSRİ ilə Çin arasında hücum etməmək haqqında müqavilə. Xasan gölü ətrafında və Xalxin-Qol çayı (Monqolustan) sahilində yapon qoşunlarının Sovet ordusu tərəfindən məğlub edilməsi, onun Yaponiyanın xarici siyasət planlarına təsiri.

XX əsrin 30-cu illərində Latın Amerikasında beynəlxalq münasibətlər.

**İkinci Dünya müharibəsi dövründə beynəlxalq münasibətlər**

Almaniyanın Polşaya hücumu və İkinci Dünya müharibəsinin başlanması. İngiltərə və Fransanın Almaniyaya müharibə elan etməsi. Müharibənin dövrləşdirilməsi. ABŞ-nin mövqeyi. Qərb cəbhəsində "qəribə müharibə".

Müharibənin birinci dövründə SSRİ-nin xarici siyasəti. Sovet–Fin müharibəsi, onun yekunları. Qərbi Ukrayna, Qərbi Belorusiya və Baltik respublikalarının SSRİ-yə birləşdirilməsi.

Almaniya tərəfindən Danimarka, Norveç, Belçika, Hollandiya və Lüksemburqun işğalı. İtaliyanın müharibəyə qoşulması. Fransanın məğlubiyyəti. Afrikada hərbi əməliyyatların başlanması. Almaniya–İtaliya və Yaponiya arasında Berlin paktının imzalanması. Macarıstan, Rumıniya və Bolqarıstanın Berlin paktına qoşulması. Almaniya və onun müttəfiqləri tərəfindən Yunanıstan və Yuqoslaviyanın işğalı. Almaniyanın İngiltərəyə qarşı müharibə planı. ABŞ–İngiltərə münasibətləri. "Lend-liz" haqqında qanun.

Almaniyanın SSRİ-yə hücumu. "Barbarossa planı". İldırımsürətli müharibə planının boşa çıxması.

Uzaq Şərqdə beynəlxalq vəziyyət. Yaponiyanın ərazi işğalları. Yaponiyanın Pearl Harbor hücumu.

Antifaşist koalisiyanın formalaşması. Sovet və İngiltərə qoşunlarının İrana daxil olması. Atlantika xartiyası. "Birləşmiş Millətlər" bəyannaməsi.

Müharibə dövrünün beynəlxalq münasibətlərində "ikinci cəbhə" məsələsi. Sovet–İngiltərə müqaviləsi (26 may 1942-ci il). SSRİ ilə ABŞ arasında saziş (11 iyun 1942-ci il). Şimali Afrikada hərbi əməliyyatlar.

Müharibənin gedişində əsaslı dönüşün başlanması. Sakit okean hövzəsində hərbi əməliyyatlar. Almaniya və İtaliya qoşunlarının 1943-cü ilin mayında Afrikada təslim olması. İtaliyanın müharibədən çıxması. İtaliya ərazisinin almanlar tərəfindən işğalı.

İşğal edilmiş ölkələrdə müqavimət hərəkatı, onun formaları və beynəlxalq münasibətlərə təsiri.

Tehran konfransı, onun qərarları. Avropada ikinci cəbhənin

açılması. Faşist blokunun dağılması. Almaniyanın müttəfiqləri ilə barışıq sazişləri. SSRİ ərazisinin azad edilməsi. Sovet qoşunlarının Şərqi Avropa ölkələrinə daxil olması. Qərbdə hərbi əməliyyatların gedişi. Fransanın azad edilməsi.
Krım konfransı, onun qərarları.

Faşist Almaniyasının məğlubiyyəti. Avropada hərbi əməliyyatların başa çatması. Potsdam konfransı, onun qərarları. San-Fransisko konfransı. BMT-nin yaradılması.

SSRİ-nin Yaponiyaya qarşı müharibədə iştirakı. Yaponiyanın təslim olması. İkinci dünya müharibəsinin qurtarması.

## İkinci Dünya müharibəsinin beynəlxalq-siyasi yekunlari

Faşist blokunun hərbi-siyasi məğlubiyyəti. Antifaşist koalisiyanın qələbəsi. Beynəlxalq aləmdə qüvvə nisbətinin dəyişməsi və siyasi qüvvələrin yerləşməsi. SSRİ-nin və ABŞ-nin beynəlxalq mövqelərinin möhkəmlənməsi. İngiltərə və Fransanın mövqelərinin zəifləməsi.

Sosializmin dünya sisteminə çevrilməsində SSRİ-nin rolu. Kommunist blokunun xarici siyasəti. Müstəmləkə sisteminin dağılması, azad olmuş ölkələrin yeni beynəlxalq sistemin formalaşmasında iştirakı.

Beynəlxalq münasibətlərin tənzimlənməsində təşkilatların rolu. BMT-nin fəaliyyəti.

## XX əsrin 40-ci illərinin ikinci yarisinda beynəlxalq münasibətlər

Avropada sülh tənzimləmə məsələləri. Xarici İşlər Nazirləri Şurasının fəaliyyəti. Paris sülh konfransı (1946). Almaniyanın müttəfiqləri ilə sülh müqavilələrinin imzalanması. Belqrad konfransı (1948) və Dunay çayında gəmiçilik rejiminə dair yeni konvensiya.

Almaniyada sülh tənzimləmə ətrafında diplomatik mübarizə. 1948-ci il Berlin böhranı. AFR-in və ADR-in yaradılması. "Soyuq müharibə"-nin səbəbləri və başlanması. İki əks sosial-iqtisadi sistem arasında qarşıdurmanın beynəlxalq münasibətlərə təsiri.

"Çəkindirmə" və "Trumen" doktrinaları. "Marşal planı". Qərb ittifaqının və NATO-nun yaradılması.

SSRİ-nin xarici siyasəti. SSRİ-nin Şərqi Avropa ölkələri ilə münasibətləri. Qarşılıqlı İqtisadi Yardım Şurasının yaradılması.

Yaxın və Orta Şərqdə beynəlxalq münasibətlər. Yaxın Şərqdə ABŞ–İngiltərə rəqabəti. Ərəb–İsrail müharibəsi (1948–1949), onun yekunları.

Uzaq Şərqdə beynəlxalq münasibətlər. Uzaq Şərq Komissiyasının və Yaponiya üzrə İttifaq Şurasının fəaliyyəti. Çin vətəndaş müharibəsi, ÇXR-in yaradılmasının beynəlxalq münasibətlərə təsiri.

Latın Amerikasında beynəlxalq münasibətlər. "Rio-de-Janeyro paktı". Amerika Dövlətləri Təşkilatının yaradılması.

## XX əsrin 50-ci illərində beynəlxalq münasibətlər

Avropada beynəlxalq münasibətlər. "Almaniya məsələsi" və böyük dövlətlərin mövqeyi. "Almaniya məsələsi" və Avropa təhlükəsizliyi. AFR-in Qərbi Avropa İttifaqına və NATO-ya daxil olması. "Hallştayn doktrinası". Avstriya ilə dövlət müqaviləsi. Qərbi Avropada inteqrasiya prosesləri. Avropa Kömür və Polad Birliyi, Avropa İqtisadi Birliyi ("Ümumi bazar") və Atom Enerjisi üzrə Avropa Birliyinin yaradılması. Qərbi Avropa inteqrasiyası və Fransa–İngiltərə ziddiyyətləri. Avropa Azad Ticarət Assosiasiyasının yaradılması.

SSRİ-nin Şərqi Avropa ölkələri ilə qarşılıqlı münasibətləri. Varşava Müqaviləsi Təşkilatının yaradılması.

Asiyada beynəlxalq münasibətlər. Türkiyənin beynəlxalq vəziyyəti və xarici siyasəti. 1952-ci il inqilabı və Misirin müstəqillik qazanması. Süveyş kanalının milliləşdirilməsi. "Süveyş böhranı". İngiltərə, Fransa və İsrailin Misirə qarşı hərbi müdaxiləsi, onun yekunları. "Eyzenhauer doktrinası". CENTO-nun yaradılması. İraqın Bağdad paktından çıxması. İranın beynəlxalq vəziyyəti və xarici siyasəti.

Uzaq Şərqdə sülh tənzimləmə məsələsi. San-Fransisko konfransı (1951), Yaponiya ilə sülh müqaviləsi. SSRİ ilə Yaponiya arasında

diplomatik münasibətlərin bərpası. “Kuril adaları” probleminin Sovet–Yapon münasibətlərinə təsiri. Fransa–Vyetnam müharibəsinin gedişi. Hind-Çinə dair 1954-cü il Cenevrə sazişləri. Cənub-Şərqi Asiya Müqavilə Təşkilatının (SEATO) yaradılması. Koreya müharibəsi (1950–1953), BMT və böyük dövlətlərin mövqeyi. “Koreyanın birləşdirilməsi” problemi. Azad olmuş ölkələrin bloklara qoşulmamaq və sülh yanaşı yaşamaq uğrunda mübarizəsi. Bandunq konfransı. ÇXR-in xarici siyasəti. Sovet–Çin münasibətləri.

XX əsrin 50-ci illərində Latın Amerikasında beynəlxalq münasibətlər.

XX əsrin 50-ci illərində beynəlxalq münasibətlərdə tərksilah problemi.

## XX əsrin 60-cı illərində beynəlxalq münasibətlər

Avropada beynəlxalq münasibətlər. Kommunist bloku ölkələrinin qarşılıqlı münasibətləri. Albaniyanın Varşava Müqaviləsi Təşkilatından çıxması. Çexoslovakiyada 1968-ci il hadisələri.

Qərb dövlətlərinin qarşılıqlı münasibətləri. Qərbi Avropa inteqrasiyasının inkişafı. NATO-nun “çoxtərəfli nüvə qüvvələrinin yaradılması” planı. ABŞ–İngiltərə münasibətlərinin Avropada qüvvələr nisbətinə təsiri. Fransa ilə AFR arasında 1963-cü il Yelisey müqaviləsi. Fransanın NATO-nun hərbi təşkilatından çıxması. Fransa–SSRİ münasibətləri. AFR-in “Yeni Şərq” siyasətinə keçməsi. “Avropa təhlükəsizliyi” məsələsinə böyük dövlətlərin münasibəti. Qərbi Berlin məsələsi. Avropada təhlükəsizlik və əməkdaşlığa dair müşavirə ideyası.

Asiyada beynəlxalq münasibətlər. Yaxın Şərqdə vəziyyət. 1967-ci il Ərəb–İsrail müharibəsi, onun yekunları. SSRİ-nin Türkiyə, İran və Əfqanıstanla münasibətləri. Kipr problemi. İslam Konfransı Təşkilatının yaradılması. Yaxın Şərq problemi və SSRİ–Qərb qarşıdurması.

Cənubi Asiyada beynəlxalq vəziyyət. ABŞ–Vyetnam müharibəsinin səbəbləri və başlanması. R.Niksonun “Quam doktrinası”. Asiyada kollektiv təhlükəsizlik sisteminin yaradılması ideyası. ASEAN-ın yaradılması.

Uzaq Şərqdə beynəlxalq vəziyyət. ÇXR-in xarici siyasəti.SSRİ–Çin münasibətlərinin Asiyada beynəlxalq münasibətlərə təsiri. Yaponiyanın xarici siyasəti.

Latın Amerikasında beynəlxalq münasibətlər. Kuba inqilabı və böyük dövlətlərin mövqeyi. Karib böhranı, onun həlli. ABŞ-ın Latın Amerikasında siyasəti. SSRİ-nin Latın Amerikası ölkələri ilə əməkdaşlığı.

XX əsrin 60-cı illərində beynəlxalq münasibətlərdə tərksilah problemi.

## XX əsrin 70–80-ci illərində beynəlxalq münasibətlər

XX əsrin 70-ci illərində beynəlxalq münasibətlərin inkişaf meylləri. Beynəlxalq gərginliyin zəifləməsi. SSRİ-nin Qərb ölkələri ilə əməkdaşlığı. Gərginliyin zəifləməsində Sovet–ABŞ münasibətlərinin rolu. AFR-in SSRİ, Polşa, ADR və Çexoslovakiya ilə müqavilələri. XX əsrin 70-ci illərinin ikinci yarısında beynəlxalq gərginliyin artması, onun səbəbləri.

Ümumavropa prosesi. Avropada təhlükəsizlik və əməkdaşlıq məsələlərinə dair Ümumavropa müşavirəsi, onun Yekun aktı. XX əsrin 70-ci illərinin ikinci yarısı və 80-ci illərində Ümumavropa prosesinin inkişafı.

Qərb dövlətlərinin qarşılıqlı münasibətləri. Qərbi Avropa inteqrasiyasının inkişafı. Avropa İqtisadi Birliyinə yeni dövlətlərin daxil olması. ABŞ və Qərbi Avropa inteqrasiyası. Yaponiya və Qərbi Avropa inteqrasiyası. İnkişaf etmiş ölkələrin liderlərinin görüşləri (“Yeddilər görüşü”).

Şərq bloku ölkələrinin qarşılıqlı münasibətləri. Polşa hadisələri, Qərb dövlətlərinin mövqeyi. İqtisadi-siyasi və hərbi sahələrdə SSRİ ilə Şərqi Avropa ölkələri arasında əməkdaşlığın zəifləməsi.

Yaxın və Orta Şərqdə beynəlxalq münasibətlər. 1973-cü il Ərəb–İsrail müharibəsi, onun yekunları. Yaxın Şərq probleminin Cenevrə konfransında müzakirəsi. Yaxın Şərqdə SSRİ–ABŞ rəqabəti. Misir ilə İsrail arasında Kemp-Devid sazişləri. Fələstin Azadlıq Təşkilatının İsrailə qarşı mübarizəsi. XX əsrin 80-ci illərində SSRİ və ABŞ-ın Yaxın Şərq probleminin həllinə dair təklifləri. Beynəlxalq

təşkilatların Yaxın Şərq probleminin həllinə yönəlmiş səyləri. İran–İraq müharibəsi, onun beynəlxalq münasibətlərə təsiri. Kipr problemi. SSRİ-nin Əfqanıstana qarşı müharibəsi. Əfqanıstana dair Cenevrə sazişləri. SSRİ-nin Yaxın və Orta Şərq ölkələri ilə münasibətləri.

Uzaq Şərqdə beynəlxalq münasibətlər. Hindistanın xarici siyasəti. Hindistan–Pakistan müharibəsi. Çin Xalq Respublikasının xarici siyasəti. Çin–Sovet münasibətləri. Tayvan problemi. Çin ilə ABŞ arasında diplomatik münasibətlərin bərpası və inkişafı. 1979-cu il Çin–Vyetnam müharibəsi. ÇXR–Yaponiya münasibətləri. Hind-Çin regionu, ABŞ–Vyetnam müharibəsinin başa çatması, Paris sülhü. VSR-in yaradılması. Koreya məsələsi. Yaponiyanın xarici siyasəti.
Latın Amerikasında beynəlxalq münasibətlər.
70–80-ci illərdə beynəlxalq münasibətlərdə tərksilah problemi.

## XX əsrin 90-cı illərində beynəlxalq münasibətlər

"Soyuq müharibə"nin beynəlxalq-siyasi yekunları. Dünya sosialist sistemi və SSRİ-nin dağılmasının beynəlxalq münasibətlərə təsiri. QİYŞ-in və Varşava Müqaviləsi Təşkilatının buraxılması. Müstəqil Dövlətlər Birliyinin yaradılması. MDB üzvü olan ölkələr arasında münasibətlər. SSRİ-nin nüvə potensialı problemi. Milli ziddiyyətlərin kəskinləşməsi və Rusiya Federasiyasında, Moldovada, Gürcüstanda və Azərbaycanda hərbi münaqişələrin beynəlxalq münasibətlərə təsiri.

XX əsrin 90-cı illərində beynəlxalq münasibətlərin əsas inkişaf meylləri. Yeni beynəlxalq münasibətlər sisteminin formalaşmağa başlaması. ABŞ-ın beynəlxalq mövqelərinin möhkəmlənməsi. ABŞ–Rusiya münasibətləri. "Dəyişən dünya" şəraitində Rusiya Federasiyasının xarici siyasəti. Beynəlxalq münasibətlərin tənzimlənməsində beynəlxalq təşkilatların rolu. BMT-nin fəaliyyəti.

Avropada yeni dövlətlərarası münasibətlər sisteminin formalaşması. Almaniyanın yenidən birləşdirilməsi. Şərqi Avropa ölkələrinin xarici siyasəti. Çexoslovakiyanın parçalanması. Yuqoslaviyanın dağılması. Bosniya münaqişəsi. Paris sülhü. Kosovo münaqişəsi: səbəbləri və başlanması. Münaqişə dövründə Qərb

dövlətlərinin və Rusiya Federasiyasının diplomatiyası. Kosovo münaqişəsinin həllində NATO-nun iştirakı. Makedoniya hadisələri və NATO.

Qərbi Avropa inteqrasiyasının inkişafı. Avropa İttifaqının yaradılması, təşkilata yeni dövlətlərin daxil olması. NATO-nun beynəlxalq münasibətlərə təsirinin artması, "Sülh naminə tərəfdaşlıq" proqramı və yeni strateji konsepsiya. Şərqə doğru genişlənmə. NATO-nun "yeni strateji konsepsiyası". NATO və regional münaqişələr. Rusiyanın Avropadakı beynəlxalq təşkilatlarla əlaqələri. Avropa təhlükəsizliyi və Rusiya–NATO münasibətləri.

XX əsrin 90-cı illərində Ümumavropa prosesinin inkişafı. ATƏM iştirakçılarının Paris görüşü, "Yeni Avropa üçün Paris xartiyası". Avropada adi silahların və silahlı qüvvələrin ixtisarına dair müqavilə. ATƏM iştirakçılarının Helsinki görüşü (1992) və Budapeşt sammiti (1994). ATƏT-in yaradılması. ATƏT-in Lissabon zirvə görüşü (1996). ATƏT-in İstanbul sammitində (1999) qəbul edilən əsas sənədlər: İstanbul Bəyannaməsi, Avropa Təhlükəsizlik Xartiyası və Avropada adi silahların ixtisarına dair uyğunlaşdırılmış müqavilə. Azərbaycan Respublikasının Ümumavropa prosesində iştirakı.

Yaxın və Orta Şərqdə beynəlxalq münasibətlər. Körfəz müharibəsi, onun yekunları. ABŞ-nin İran körfəzində mövqelərinin möhkəmlənməsi. ABŞ və İngiltərənin İraqa qarşı hərbi əməliyyatları. Fələstin problemi və Yaxın Şərqdə sülh tənzimləmə prosesi. Yaxın Şərq problemi və Rusiyanın siyasəti. ABŞ-nin vasitəçilik səylərinin artması. 1994–1998-ci illərdə İsraillə FƏT arasında Fələstin muxtariyyətinə dair sazişlər. İordaniya ilə İsrail arasında sülh müqaviləsi. Suriya–İsrail münasibətləri. Qüds problemi. Ərəb–İsrail münaqişəsinin beynəlxalq münasibətlərə təsiri. İran və Türkiyənin xarici siyasəti. Əfqanıstanda vətəndaş müharibəsi, böyük dövlətlərin və beynəlxalq təşkilatların mövqeyi.

Uzaq Şərqdə beynəlxalq vəziyyət. Koreyanın birləşdirilməsinə yönəlmiş səylərin artması. ÇXR-in xarici siyasəti. Tayvan böhranı (1996). Honkonq məsələsinin həlli. Çin–Rusiya münasibətləri. Cənubi Asiyada beynəlxalq münasibətlər. Hindistanın xarici siyasəti. Hindistan–Pakistan münasibətləri. Hind-Çində beynəlxalq vəziyyət.

Yaponiyanın xarici siyasəti.
Latın Amerikasında beynəlxalq münasibətlər.
Beynəlxalq münasibətlərdə tərksilah problemi.

Azərbaycan Respublikası və yeni beynəlxalq münasibətlər sisteminin formalaşması. Azərbaycanın xarici siyasətinin məqsəd və prinsipləri. Azərbaycan Respublikasının diplomatiyası, onun inkişaf mərhələləri, səciyyəvi cəhətləri, çətinlik və nailiyyətləri. Ermənistan–Azərbaycan münaqişəsini həll etmək üçün böyük dövlətlərin və beynəlxalq təşkilatların səyləri.

## XXI əsrin əvvəllərində beynəlxalq münasibətlər

XXI əsrin əvvəllərində beynəlxalq vəziyyətin ümumi səviyyəsi. Qlobal problemlərin beynəlxalq münasibətlərə təsirinin artması. Beynəlxalq terrorçuluğa qarşı mübarizə məsələsi dünya siyasətində. ABŞ-ın Nyu-York və Vaşinqton şəhərlərində 11 sentyabr 2001-ci ildə törədilmiş terror aktları.

Avropada beynəlxalq vəziyyət. Avropada inteqrasiyanın inkişafı. NATO-ya yeni dövlətlərin qəbul edilməsi. ATƏT-in fəaliyyəti.

Yaxın və Orta Şərqdə beynəlxalq münasibətlər. "Buş doktrinası". Ərəb–İsrail münaqişəsinin tənzimlənməsinə yönəlmiş səylərin artması. "Yol xəritəsi" planı. Fələstin muxtariyyətinin yeni rəhbərliyinin (2004) münaqişənin həlli sahəsində fəaliyyəti.

XX–XXI əsrlərin hüdudunda beynəlxalq vəziyyətin ümumi səciyyəsi. Müasir dövrün qlobal problemləri. Beynəlxalq münasibətlərdə terrorizmə qarşı mübarizə məsələsi. ABŞ-nin Nyu-York və Vaşinqton şəhərlərində 11 sentyabr 2001-ci ildə törədilmiş terror aktları. ABŞ-nin Əfqanıstanda terrora qarşı əməliyyatları və Qərb dövlətləri. Əfqanıstan hadisələri və Rusiya Federasiyasının mövqeyi. İraq problemi və 2003-cü ildə ABŞ və müttəfiqlərinin İraqa müdaxiləsi, Səddam Hüseyn rejiminin süqutu və Yaxın Şərqdə sabitsizliyin artması. Beynəlxalq terrorçuluğa qarşı mübarizədə Azərbaycan Respublikasının iştirakı.

Avropada beynəlxalq vəziyyət. Avropa İttifaqının genişlənməsi, Şərqi Avropa ölkələrinin Aİ-yə daxil olması. NATO-nun genişlənməsi və Rusiya ilə münasibətlərin mürəkkəbləşməsi.

Kosovonun statusunun 2008-ci ildə birtərəfli bəyan edilməsi və Balkanlar münaqişələrinin yeni mərhələsi. Ukraynada 2004-cü il "Narıncı inqilab", 2014-cü il hadisələri və Rusiya-Qərb ziddiyyətlərinin kəskinləşməsi.

Rusiyanın beynəlxalq mövqeyi. 2000-ci illərdən sonra Rusiyanın xarici siyasətinin aktivləşməsi. Qərb dövlətləri ilə rəqabət, NATO ilə qarşıdurma, Şərq tərəfə doğru yönəliş (Çin, İran, Orta Asiya dövlətləri ilə əlaqələr).

Çin Xalq Respublikasının beynəlxalq mövqeyinin möhkəmlənməsi. "Bir kəmər, bir yol" strategiyası, iqtisadi ekspansion siyasət və qlobal iqtisadi gücə çevrilməsi. ABŞ–Çin rəqabətinin kəskinləşməsi.

Yaxın Şərqdə beynəlxalq münasibətlər. "Ərəb baharı" prosesləri (2011), Suriya vətəndaş müharibəsi və regional gərginliklərin artması. İran nüvə proqramı ətrafında beynəlxalq danışıqlar. İŞİD-in yaranması və beynəlxalq antiterror əməliyyatları. İran nüvə proqramı ətrafında danışıqlar və 2015-ci il "Birgə hərtərəfli fəaliyyət planı" (JCPOA), sonrakı gərginliklər. İsrail–Fələstin münaqişəsinin yeni mərhələsi.

BMT, NATO, Aİ və digər beynəlxalq təşkilatların müasir dövrdə rolunun artması. Kollektiv təhlükəsizlik sisteminin çətinlikləri.

Latın Amerikasında beynəlxalq münasibətlər. Regional inteqrasiya prosesləri, ABŞ-ın siyasəti və yeni solçu hərəkatlar. Braziliya, Meksika və Argentinanın regional liderlik uğrunda rəqabəti.

Afrikada beynəlxalq münasibətlər. Postkolonial problemlər, terrorizm, miqrasiya böhranları və iqtisadi asılılığın davam etməsi. Çinin Afrikada genişlənən investisiya siyasəti.

Uzaq Şərqdə beynəlxalq vəziyyət. ABŞ–Çin rəqabətinin Asiya–Sakit okean regionunda kəskinləşməsi. Tayvan böhranı, Cənubi Çin dənizində mübahisəli ərazilər. Yaponiyanın beynəlxalq siyasətinin fəallaşması. Şimali Koreya nüvə proqramı və raket sınaqları.

Cənubi Asiyada beynəlxalq münasibətlər. Hindistanın qlobal güc kimi mövqeyinin güclənməsi. Hindistan–Pakistan münasibətlərində Kəşmir problemi. Əfqanıstanda Talibanın 2021-ci ildə hakimiyyətə qayıdışı və regional təhlükəsizlik problemləri.

Beynəlxalq təşkilatların rolu. BMT-nin sülh və təhlükəsizlik sahəsində fəaliyyəti, lakin qərarvermə mexanizmlərində çətinliklər. NATO-nun rolunun artması. Avropa İttifaqının qlobal aktor kimi mövqeyinin möhkəmlənməsi. BRICS formatının genişlənməsi və yeni çoxqütblü sistemin formalaşması.

Qlobal iqtisadi, ekoloji və enerji problemləri. Enerji böhranları, xüsusilə 2022-ci ildən sonra Avropada enerji təhlükəsizliyi məsələsi. İqlim dəyişikliyi ilə mübarizə (Paris sazişi çərçivəsində tədbirlər). "Yaşıl enerji"-yə keçid və alternativ enerji layihələrinin genişlənməsi.

Kiber təhlükəsizlik, informasiya müharibələri və rəqəmsal texnologiyaların beynəlxalq münasibətlərə təsiri. Süni intellektin və rəqəmsal iqtisadiyyatın qlobal rəqabətə təsiri. Beynəlxalq terrorizm və transmilli təhlükələrin davam etməsi.

## Azərbaycan Respublikasının xarici siyasəti (XX əsrin 90-cı illəri – XXI əsrin əvvəlləri)

Azərbaycan Respublikasının xarici siyasəti. Azərbaycanın müstəqillikdən sonra xarici siyasət kursunun formalaşması. Ermənistan–Azərbaycan münaqişəsi və xarici siyasət. BMT və digər təşkilatlarda Azərbaycanın ərazi bütövlüyü məsələsinin müzakirəsi.

2020-ci il İkinci Qarabağ müharibəsi və Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası. Post-münaqişə dövrü və sülh prosesinin başlanması. Ermənistanla sülh sazişi üzrə danışıqlar.

Regional əməkdaşlıq və strateji tərəfdaşlıq. Türkiyə ilə strateji müttəfiqlik. Rusiya ilə balanslaşdırılmış münasibətlər. ABŞ və Avropa İttifaqı ilə əməkdaşlıq. Çin və Mərkəzi Asiya ölkələri ilə iqtisadi və siyasi əlaqələrin inkişafı. İran ilə regional əməkdaşlıq münasibətləri.

Beynəlxalq təşkilatlar və Azərbaycan. BMT, ATƏT, Avropa Şurası və digər təşkilatlarda fəal iştirak. Qoşulmama Hərəkatında üzvlük və müstəqil siyasət kursu.

Enerji və nəqliyyat siyasəti. Cənub Qaz Dəhlizi və enerji diplomatiyası. Orta Dəhliz və tranzit-nəqliyyat layihələrinin inkişafı.

Post-münaqişə dövrü və sülh gündəliyi. Ermənistanla sülh sazişinin imzalanması istiqamətində proseslər. Regional

kommunikasiyaların açılması.

**Ədəbiyyat:**


1. Baxışov M. Avropa və Amerika ölkələrinin müasir tarixi (1918-1945). Dərs vəsaiti. Bakı: ATU-nun mətbəəsi, 2018, 21 ç.v.
2. Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi (1918-2003). Dərs vəsaiti. Bakı: ATU-nun mətbəəsi, 2012, 25,5 ç.v.
3. Baxışov M.Ə.ABŞ-ın yeni və müasir tarixi. Dərs vəsaiti. Bakı: ATU-nun mətbəəsi, 2012, 11,2 ç.v.
4. Qasımlı M.C. Avropa və Amerika ölkələrinin müasir tarixi (1918–1945). Bakı, 2003, 412 s.
5. Qasımlı M.C. Avropa və Amerika ölkələrinin müasir tarixi. II hissə (1945–2002). Bakı, 2008, 365 s.
6. Calvocoressi P. World Politics since 1945. New York, 2015, 1024 p.
7. Davies N. Europe: A History. New York: HarperCollins, 1998, 900 p.
8. Gözəlova Y. Beynəlxalq münasibətlər tarixi (XVI –XVII əsrin birinci yarısı). Dərs vəsaiti. Bakı: Elm, 2006, 47 s.
9. Herring G.C. From Colony to Superpower: U.S. Foreign Relations since 1776. Oxford History of the United States, 2008, 1056 p.
10. Keylor W.R. The Twentieth-Century World: An International History. Oxford University Press, 2001, 688 p.
11. Kissinger H. Diplomacy. New York; London: Simon & Schuster, 1994, 912 p.
12. Leffler M.P., Westad O.A. (eds.). The Cambridge History of the Cold War, Vol. 1: Origins. University of Virginia, 2010, 607 p.
13. Leffler M.P., Westad O.A. (eds.). The Cambridge History of the Cold War, Vol. 2: Crises and Détente. University of Virginia, 2010, 664 p.
14. Leffler M.P., Westad O.A. (eds.). The Cambridge History of the Cold War, Vol. 3: Endings. University of Virginia, 2010, 723 p.
15. Protopopov A.S. Beynəlxalq münasibətlər tarixi (1648–2005) (rus dilindən tərcümə). Bakı, 2009, 528 s.
16. The New Cambridge Modern History, Vol. 12: The Shifting

Balance of World Forces, 1898–1945. Cambridge University Press, 950 p.
17. Александров В.В. Новейшая история стран Европы и Америки (1918–1945). М., 612 с.
18. Александров В.В. Новейшая история стран Европы и Америки. М., 612 с.
19. Гренвилл Дж. История XX века. М., 784 с.
20. История международных отношений и внешней политики СССР (3 тома). М.: Наука, 515 с.
21. История Первой мировой войны (2 тома). М.: Наука, 648 с.
22. Современные международные отношения. М., 2001, 376 с.

Çapa imzalanmışdır: 22.01.2020
Kağız formatı: 60x84 1/16 Həcmi: 2.5 ç.v. “Ləman Nəşriyyat Poliqrafiya” MMC-də çap olunmuşdur